Təsdiq edirəm

ADMİU-nun rektoru

_________Professor Ceyran Mahmudova

“12” “sentyabr” 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**7003011 – Musiqişünaslıq ixtisasının**
**Etnomusiqişünaslıq ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003011 – Musiqişünaslıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- musiqi sənətini geniş ictimaiyyətə tanıtmaq;
- musiqi sənətini təbliğ etmək və müxtəlif tədbirlərdə, konfrans və seminarlarda, KİV və musiqi salonlarında çıxış edərək, maarifləndirici fəaliyyət göstərmək;
- KİV-də musiqi redaktoru, prodüser, aparıcı və s. kimi fəaliyyət göstərmək;
- müasir rəqəmsal yexnologiyaların müxtəlif musiqi sənətinə təsirini təhlil və çərh etmək, habelətətbiq etmək,
- musiqi publisistikasının müxtəlif janrlarında yazmaq.

***Qeyd:*** *ixtisasın xüsusiyyətindən asılı olaraq ümumi səriştələrə əlavələr edilə bilər.*

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

- ənənəvi musiqi irsini, elmi-nəzəri əsaslarını bilmək, onun aktual problemlərini, bu sahədə baş verən inkişaf proseslərini izləmək və təhlil etmək;
- yerli və xarici etnomusiqişünaslığın əsas istiqamətləri və tarixi inkişaf mərhələləri üzrə biliklərə malik olmaqla təhlil aparmaq;
- ənənəvi musiqiyə aid müxtəlif səpkili tədris materiallarını hazırlamaq;
- müasir etnomusiqişünaslığın aktual problemlərini müəyyənləşdirmək və onların həlli üsullarını təklif edə bilmək;
- Ənənəvi musiqi sahəsində əldə etdiyi elmi-nəzəri bilikləri şifahi ənənəli professional musiqi materialının tədqiqinə tətbiq edə bilmək;
- etnomusiqişünaslıq tədqiqatları zamanı əlaqəli elmi istiqamətlərdən - folklorşünaslıq, etnoqrafiya və s. yararlanaraq etnomusiqişünaslığın məqsədini, elmi vəzifələrini və metodlarını müəyyənləşdirə bilmək;
- müasir dövr etnomusiqişünaslığının sosial-mədəni və tərbiyəvi funksiyalarını dərk edərək elmi-tədqiqat işlərinə tətbiq edə bilmək;
- təhsil sisteminə təsir edən müxtəlif təmayülləri araşdırmaq, etnomusiqişünaslığa dair aktual problemlər üzrə müstəqil araşdırma aparmaq, onların sinergetik köklərini üzə çıxarmaq, qlobal və milli musiqi təfəkkür formaları arasında müqayisəli təhlil aparmaq və semiotik yanaşmaları tətbiq edərək etnomusiqişünaslığın nəzəri spektrini genişləndirə bilmək;
- etnoorqanologiyanın əsaslarını bilmək və elmi-tədqiqat fəaliyyətində istifadə etməyi bacarmaq;
- tədqiqat metodları vasitəsilə müqayisəli təhlil aparmaq və bunların həllində İKT-dən istifadə etmək;
- müasir rəqəmsal texnologiyaların etnomusiqişünaslığa təsirini təhlil və şərh edə bilmək;
- musiqi sahəsində tətbiq olunan müasir rəqəmsal texnologiyalardan (Final, Sibelius və s.) istifadə etmək;

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| ○ Etnomusiqişünaslıq | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 3 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
|  | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 72 |
| 4 | **Musiqişünaslığın tarixi və metodologiyası**<br>*Bu fənnin tədrisi musiqişünaslığın tarixi inkişafını və elmi-metodoloji əsaslarını öyrətmək, musiqi tədqiqatlarında istifadə olunan müxtəlif yanaşmaları və metodları mənimsətmək, musiqişünaslığın nəzəri* | 6 |

| | | |
|---|---|---|
| | *bazasını formalaşdırmaq və tələbələri müasir elmi tədqiqat aparmaq bacarıqları ilə təchiz etmək üçün nəzərdə tutulmuşdur.* | |
| 5 | **Ənənəvi musiqi nümunələrinin təhlili**<br>Bu fənnin məqsədi ənənəvi və şifahi ənənəli professional musiqi nümunələrinin formaları, ənənəvi musiqi sistemlərinin struktur-semantik səviyyədə təhlil edərək onların modal quruluşları, ritmik modelləri, improvizasiya üsulları və intonasiya sistemləri haqqında bilgilər vermək, xalq musiqisi və şifahi ənənəli professional musiqi nümunələrini elmi-metodoloji yanaşmalar tətbiq etməklə təhlil etmək metodikasını mənimsətməkdir. | 6 |
| 6 | **Musiqişünaslığın əsas istiqamətləri**<br>*Fənnin əsas məqsədi musiqişünaslıq elminin əsas sahələrini və onların tədqiqat obyektlərini sistemli şəkildə öyrətmək, musiqi elminin nəzəri, tarixi, estetik və praktiki istiqamətləri üzrə elmi düşüncə tərzini formalaşdırmaq və bu sahədə tədqiqat aparmaq üçün nəzəri – metodoloji baza ilə təmin etməkdir.* | 6 |
| 7 | **Müasir musiqi texnologiyaları**<br>*Bu fənn tələbələrə musiqi sənayesində və təhsilində tətbiq olunan müasir texnologiyaların mahiyyətini, funksiyalarını və tətbiq sahələrini öyrətmək, rəqəmsal musiqi texnologiyalarını, elektron musiqi janrlarının və texnologiyalarının əsas xüsusiyyətlərini və inkişaf prespektivlərini izah etmək, proqram təminatlarını, səs yazısı və redaktə alətlərini mənimsətmək, həmçinin müasir musiqi texnologiyalarının musiqi təhlili, tədqiqi və yaradıcılıq prosesində rolunu qiymətləndirməkdir.* | 6 |
| 8 | **Muğamşünaslığın tarixi və nəzəriyyəsi**<br>*Bu fənnin məqsədi Azərbaycan muğam sənətinin elmi əsaslarını öyrətmək, muğamın tarixi inkişaf mərhələləri, nəzəri əsasları, ifaçılıq ənənələri və müasir muğamşünaslıq tədqiqatlarının metodologiyası haqqında sistemli və dərin biliklər verməkdir. Fənn çərçivəsində muğam sənəti həm milli, həm də ümumbəşəri musiqi kontekstində təhlil edilir.* | 6 |
| 9 | **Aşıqşünaslığın tarixi və nəzəriyyəsi**<br>*Bu fənn çərçivəsində aşıq yaradıcılığı milli musiqi ənənəsinin vacib tərkib hissəsi kimi öyrənilir, aşıq sənətinin tarixi inkişaf mərhələləri, janr xüsusiyyətləri, muğam və xalq musiqisi ilə qarşılıqlı əlaqəsi, eləcə də, ifaçılıq və improvizasiya prinsipləri haqqında nəzəri və praktiki bilgilər verilir.* | |
| 10 | **Musiqi mənbəşünaslığı**<br>*Fənnin məqsədi musiqi mənbələrinin növlərini və xüsusiyyətlərini təsnif edərək, musiqi mənbələrinin tarixini, qorunmasını və tədqiqini təşkil edən əsas prinsipləri anlatmaq, musiqi mənbələrinin toplanması, sistemləşdirilməsi və arxivləşdirilməsi üzrə metodları tətbiq etməyi öyrətmək, musiqi mənbələri əsasında tədqiqat işləri aparmaq üçün metodoloji baza yaratmaqdır.* | 6 |

| | | |
|---|---|---|
| 11 | **Musiqi tənqidi və musiqi jurnalistikası**<br>*Fənn çərçivəsində musiqi tənqidinin tarixi inkişafı, əsas istiqamətləri və aparıcı nəzəriyyələri, musiqi tənqidi və musiqi jurnalistikasının metodoloji əsasları haqqında bilgilər verilir, musiqi jurnalistikasında üslub, dil və terminologiyadan düzgün istifadə yolları öyrədilir, materialla düzgün işləmək, səlis redaktə etmək, musiqi hadisələrinə dair analitik və obyektiv resenziyalar yaza bilmək səriştəsi əldə edilir, KİV-lərdə musiqi tənqidinin rolu və funksiyası təhlil edilir.* | 6 |
| 12 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali təhsilin pedaqoji əsaslarını, müasir təlim və tərbiyə prinsiplərini, ali məktəb müəlliminin peşə fəaliyyətini və pedaqoji ustalığını mənimsətmək məqsədini daşıyır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| 13 | **a) Etnomusiqişünaslıq**<br>*Bu fənn çərçivəsində tələbələr dünyanın müxtəlif xalqlarına məxsus musiqi mədəniyyətlərini, onların sosial, mədəni və tarixi kontekstlərini öyrənir, həmçinin etnomusiqişünaslığın əsas nəzəriyyə və metodlarını mənimsəyir, musiqi folklorunun toplanması, təsnifatı və təhlili üzrə tədqiqat bacarıqları qazanır.*<br>***b) Orqanologiya***<br>*Fənn çərçivəsində milli və dünya xalqlarının musiqi mədəniyyətində istifadə olunan musiqi alətlərinin tarixi, tipləri, funksiyaları və ictimai-mədəni kontekstdəki rolunu öyrənir. Fənn həmçinin musiqi alətlərinin etnik mənsubiyyətini, onların morfoloji və akustik xüsusiyyətlərini, simvolik və ritual funksiyalarını öyrənməyi qarşıya məqsəd qoyur.* | 6 |
| 14 | **a) Ənənəvi musiqi nümunələrinin toplanması və notasalınması metodikası**<br>*Bu fənnin əsas məqsədi tələbələrə ənənəvi musiqi nümunələrinin (xalq mahnıları, muğam, aşıq havacatları, mərasim musiqisi və s.) sahə materialı kimi toplanması, yazıya alınması (audio, video) və notasalınması metodlarını öyrədərək, gələcəkdə bir mütəxəssis kimi onları sahə tədqiqatlarına hazırlamaq, musiqi irsinin qorunması və elmi arxivlədirilməsi prosesinə cəlb etməkdir.*<br>**b) Ekspedisiya işinin metodikası və notasalınma**<br>*Ekspedisiya işinin metodikası və notasalınma fənni etnomusiqişünaslıq sahəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu fənn tələbələrə xalq musiqisinin, xüsusilə də aşıq yaradıcılığı, muğam, xalq mahnıları və digər ənənəvi musiqi formalarının sahə şəraitində toplanması, öyrənilməsi və qeydiyyata alınması üzrə nəzəri və praktik biliklər verir.* | 6 |
| 15 | **a) Etnoorqanologiya**<br>*Fənn çərçivəsində dünya xalqlarına və xüsusilə Azərbaycan musiqi mədəniyyətinə məxsus xalq musiqi alətlərinin mənşəyi, inkişafı, təsnifatı, konstruksiyası, ifa texnikaları və mədəni-funksional rolu, milli alətərin şifahi ənənəli professional musiqi nümunələrinin* | 6 |

| | | |
|---|---|---|
| | *yaranmasında öynadığı rolu haqqında elmi bilgilər verilir, etnomusiqişünaslıq və musiqi mədəniyyəti kontekstində alətlərin öyrənilməsi təmin edilir.* | |
| | **b) Musiqi menecmenti**<br>*Fənn müasir musiqi sənayesində geniş istifadə olunan texnoloji vasitələr və proqram təminatları haqqında nəzəri və praktik biliklərin verilməsini hədəfləyir. Fənn tələbələrə musiqinin yaradılması, işlənməsi, redaktəsi, yazılması və təqdimatı proseslərində texnologiyanın rolu barədə geniş bilik verir.* | |

| | |
|---|---|
| **Təcrübə** | 30 |
| **Elmi-pedaqoji təcrübə**<br>*Elmi-pedaqoji təcrübənin məqsədi tələbənin təhsil müəssisəsində aldığı nəzəri bilikləri möhkəmləndirmək və onları praktiki bacarıqlar və səriştələrlə tamamlamaq, tələbənin bilik, bacarıq və səriştələrini inkişaf etdirmək, tələbəni müstəqil və səmərəli əmək fəaliyyətinə və akademik mühitə hazırlamaq, onun gələcək karyera inkişafına kömək etmək, qabaqcıl peşə təcrübəsi, iş üsulları, elmi tədqiqatlar və digər məsələlərlə tanış etməkdir.* | 6 |
| **Elmi tədqiqat təcrübəsi**<br>*Elmi tədqiqat təcrübəsinin əsas məqsədi musiqişünaslıq, bilavasitə musiqi tarixi və nəzəriyyəsi üzrə nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və onları praktiki bacarıqlar və səriştələrlə tamamlamaq, elmi tədqiqat sahəsindəki müstəqil peşəkarlıq vərdişlərinin formalaşdırmaq, tələbənin bilik, bacarıq və səriştələrini inkişaf etdirməkdir. Bu məqsəddən irəli gələrək elmi tədqiqat təcrübəsi magistrantın milli və ən yeni nəzəri, metodiki və texnoloji nailiyyətləri, elmi tədqiqatların müasir metodları ilə yaxından tanış olmasını, eksperimental məlumatların təhlili və interpretasiyasını, peşəkar fəaliyyət sahələrində tədqiqatçılıq vərdişlərinin mənimsənilməsini nəzərdə tutur.* | 6 |
| **Dissertasiya işi** | |
| **Magistrlik dissertasiyası** | 18 |
| **CƏMİ** | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

**Etnomusiqişünaslıq ixtisaslaşması üzrə:**

Müasir musiqi texnologiyaları ilə təchiz olunmuş tədris laboratoriyası, kitabxana, səsyazma kabineti, musiqi ədəbiyyatı, not materialları, metodik və elmi mənbələrlə zəngin fond, rəqəmsallaşdırılmış resurslara çıxış (musiqi platformaları, onlayn kitabxanalar və s.), musiqi alətləri ilə təchiz olunmuş kabinetlər, tələbə və müəllimlərin elmi-pedaqoji fəaliyyətinə dəstək verən struktur bölmələr, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq kompüter otaqları, müvafiq klassifikasiyalara malik professor-müəllim heyəti olmalıdır.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Musiqişünaslıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Turizm Agentliyi, Azərbaycan Respublikası Audiovizual Şurasında, ümumtəhsil məktəblərində, orta ixtisas təhsil müəssisələridə, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində, musiqi sahəsində ixtisaslaşmış dövlət və özəl təhsil müəssisə və mərkəzlərində, uşaq musiqi məktəblərində müəllim, mədəniyyət mərkəzləri, musiqi dərnəklərində musiqi-maarifləndirmə işinin rəhbəri, konsert, festival, müsabiqə və s. tədbirlərin təşkilatçısı, dövlət mədəniyyət və incəsənət idarəetmə orqanlarında, arxivlərdə ekspert, mütəxəssis, rəhbər və məmur, TV və radio kanallarında prodüser, aparıcı, redaktor, sahə üzrə və digər KİV-lərdə musiqi redaktoru, səsyazma studiyalarında işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

## Etnomusiqişünaslıq

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Müxtəlif xalqların və etnik qrupların ənənəvi musiqi sistemlərini struktur-semantik səviyyədə təhlil edərək onların modal quruluşları, ritmik modelləri, improvizasiya üsulları və intonasiya sistemlərini nəzəri-metodoloji əsaslarla ümumiləşdirməyi bacaracaq. Klassik və milli musiqi təfəkkür formaları arasında müqayisəli təhlil aparacaq və semiotik yanaşmaları tətbiq edə biləcək. |
| PTN 2. Ənənəvi musiqi irsinin tarixi təkamülünü dövr, region və musiqi mədəniyyətləri üzrə təsnifatlaşdıra biləcək. Elmi-nəzəri biliklərini şifahi ənənəli professional musiqi materialının tədqiqində və interpretasiyasında tətbiq etməyi bacaracaq. |
| PTN 3. Şifahi və yazılı mənbələr, səyyah qeydləri, arxiv materialları, salnamələr və tarixi mətnlərlə işləyərək mədəniyyətlərarası əlaqələri identifikasiya edə biləcək. Musiqi ənənələrinin tarixi transformasiyasını sosial kontekst, mədəni miras və regionlararası qarşılıqlı təsir baxımından şərh edərək, bu istiqamətdə elmi-tədqiqat əsərlərini ərsəyə gətirə biləcək. |
| PTN 4. Ənənəvi musiqi irsini müasir musiqi prosesləri kontekstində şərh etməyi bacaracaq. Etnoorqanologiyanın əsaslarını biləcək və elmi-tədqiqat fəaliyyətində istifadə etməyi bacaracaq. |
| PTN 5. Ənənəvi musiqi mədəniyyətinin ictimai təqdimatı, inteqrativ şəkildə təbliği, muzeylər, mədəniyyət ocaqları, konsert məkanları, təhsil platformaları və rəqəmsal media üzərindən musiqi irsini didaktik və elmi cəhətdən təqdim etməyi və mədəniyyətlərarası dialoq və musiqi mirasının davamlılığı baxımından nəzəri şəkildə əsaslandırmağı bacaracaq. |
| PTN 6. Müasir rəqəmsal texnologiyalardan istifadə edə biləcək. Müasir rəqəmsal texnologiyaların musiqi sənətinə təsirini təhlil və şərh edəcək. |
| PTN 7. Sahə tədqiqatları nəticəsində əldə olunan ənənəvi musiqi nümunələrini transkripsiya edəcək, arxivləşdirəcək və analitik təhlilə hazırlayacaq. Tədqiqatçı kimi toplanmış material əsasında elmi əsərlər, kataloqlar və metodik vəsaitlər hazırlamaqla mədəni irsin qorunmasını təmin etməyi bacaracaq. |
| PTN 8. Kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına əsaslanaraq tədqiqat aparacaq. Kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edərək, verilənləri araşdıracaq və təhlil edəcək. |
| PTN 9. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Musiqi tarixi və nəzəriyyəsi sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 10. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazacaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq və nəşr etikasına malik olacaq. |
| PTN 11. Məlumatların təhlil üçün hazırlanması və filtrasiyası, təhlil üçün sistemləşdirilməsi, vizuallaşdırılması, təhlili prosesi, növləri, toplanma mənbələri, təhlili üzrə strategiyanın qurulması |

| |
|---|
| və sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanış olacaq. ("Excel", "SPSS" və s.). İxtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillər aparacaq (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylər hazırlamağı bacaracaq. |

| Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| FTN 2 - Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| FTN 3 - Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| FTN 4 - Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| FTN 5 - Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| FTN 6 - Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| FTN 2 - Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| FTN 3 - Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4 - Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5 - Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6 - Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Musiqişünaslığın tarixi və metodologiyası fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Bu fənnin məqsədi qədim dövrdən başlayaraq musiqi elminin keçdiyi təkamül yolunu öyrənəcək; |
| FTN 2 Musiqişünaslıq sahəsində tarixi və nəzəri metodları aşılayıb, tətbiq etmək yollarını başa salacaq; |
| FTN 3 Tədqiqat metodlarının nəticələrini əsaslandırmağı bacaracaq; |
| FTN 4 XX əsr elmində meydana gəlmiş və musiqişünaslıqda öz orijinal təfsirini tapmış fənlərarası istiqamətləri işıqlandıracaq; |

| |
|---|
| FTN 5 Musiqişünaslıq elminin humanitar elmlər sistemi ilə əlaqəsini göstərəcək; |
| FTN 6 Fənn çərçivəsində semiotika, hermenevtika, sinergetika və d. istiqamətlərin metodoloji prinsiplərinin şərhini verəcək. |

| **Ənənəvi musiqi nümunələrinin təhlili fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Bu fənnin məqsədi ənənəvi və şifahi ənənəli professional musiqi nümunələrinin formaları haqqında məlumat verəcək; |
| FTN 2 Ənənəvi musiqi sistemlərinin struktur-semantik səviyyədə təhlil edərək onların modal quruluşları, ritmik modelləri, improvizasiya üsulları və intonasiya sistemləri haqqında bilgilər verəcək; |
| FTN 3 Aşıq sənətinə aid nümunələrin təhlil etmək metodlkasını öyrənəcək; |
| FTN 4 Şifahi ənənəli professional musiqi nümunələrini təhlil etmək metodikasını biləcək; |
| FTN 5 Müasir musiqinin notasalınma problemlərini öyrənəcək; |
| FTN 6 Ənənəvi musiqi nümunələrini transkripsiya etmək, arxivləşdirmək və analitik təhlil etmək, klassik və milli musiqi təfəkkür formaları arasında müqayisəli təhlil etmək səriştələrini aşılayacaq. |

| **Musiqişünaslığın əsas istiqamətləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fənnin məqsədi musiqi tarixi, digər humanitar fənlərlə, o cümlədən, fəlsəfə, sosiologiya, estetika kimi elmlərlə əlaqəsi haqqında bilgilər verəcək; |
| FTN 2 Avropa, Orta və Yaxın Şərq, həmçinin Azərbaycan musiqişünaslığının nailiyyətlərini öyrənəcək; |
| FTN 3 Bədii məzmunun musiqidə ifadə olunması üsullarını, musiqinin inkişaf prosesində formalaşmış əsas qanunauyğunluqları, onun kompozisiya vasitələrini öyrədən nəzəri musiqişünaslığı musiqişünaslığın əsas istiqamətlərindən biri kimi öyrənəcək; |
| FTN 4 Musiqi mədəniyyətini və onun müxtəlif cərəyanlarını cəmiyyətdə baş verən dəyişikliklərlə üzvi əlaqədə öyrənən tarixi musiqişünaslığı musiqişünaslığın əsas istiqamətlərindən biri kimi şərh edəcək; |
| FTN 5 Musiqi təndiqinin musiqişünaslığın əsas istiqamətlərindən biri kimi öyrənəcək; |
| FTN 6 Musiqi akustikası, musiqi psixologiyası, musiqi estetikası, musiqi sosiologiyasını musiqişünaslığın əsas istiqamətlərindən biri kimi öyrənəcək. |

| **Müasir musiqi texnologiyaları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Bu fənnin məqsədi musiqi texnologiyalarının əsas prinsipləri haqqında məlumat verəcək; |
| FTN 2 Musiqi proqram təminatlarından (DAW, MIDI, audio redaktorları və s.) istifadə etmək yollarını öyrənəcək; |
| FTN 3 Musiqi yaradılmasında, səs yazılmasında və emalında müasir texnoloji vasitələrin tətbiqini |

| |
|---|
| göstərəcək; |
| FTN 4 Elektron musiqi janrlarının və texnologiyalarının əsas xüsusiyyətlərini və inkişaf prespektivlərini izah edəcək; |
| FTN 5 Müasir musiqi texnologiyalarının musiqi təhlili, tədqiqi və yaradıcılıq prosesində rolunu qiymətləndirəcək. |

| Muğamşünaslığın tarixi və nəzəriyyəsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1 Fənnin əsas məqsədi milli musiqi xəzinəmizin ən zəngin sərvəti olan muğam sənəti, onun çoxəsrlik tarixi, bu tarixi dönəmdə keçdiyi təkamül prosesini öyrənəcək; |
| FTN 2 Modal musiqisinin və muğam nəzəriyyəsinin inkişafında böyük xidmətləri olmuş Azərbaycan alimlərinin elmi irsini araşdıracaq; |
| FTN 3 Muğamın İlkin təşəkkül dövründən başlayaraq elmi ədəbiyyat və ifaçılıq sənətində tutduğu mühüm mövqeyini biləcək; |
| FTN 4 Müasir dövrdə muğamşünaslıq elmi qarşısında duran ən aktual problemləri təhlil edəcək; |
| FTN 5 Orta əsr alimlərinin traktatlarının etnomusiqişünaslıq kontekstində araşdırılmasını həyata keçirəcək; |
| FTN 6 Muğamların notasalınması istiqamətində mövcud biliklərin təcrübədə tətbiqini öyrənəcək. |

| Musiqi mənbəşünaslığı fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fənnin əsas məqsədi qədim və orta əsrlərdə Şərq musiqisi üzrə yazılmış elmi risalələrin məzmunu, tərcümə və şərhləri haqqında geniş məlumat verəcək; |
| FTN 2 Muğamın tarixi inkşafı, terminologiyası, tarixi musiqi formaları, onların səs sistemi, məqam və iqa nəzəriyyəsini izah edəcək; |
| FTN 3 Tarixi ənənələrin müasir musiqi təcrübəsi ilə varislik əlaqələrini, bədii-estetik və fəlsəfi sistem daxilində yeri və spesifikası ilə bağlı olan problemləri öyrədəcək; |
| FTN 4 Tarixi musiqi məsələlərinin dərk olunmasında terminoloji aparatın, onların etimoloji və lüğəti açıqlamalarını öyrədəcək; |
| FTN 5 Geniş spektrli mənbələrin (biblioqrafik, notoqrafik, diskoqrafik, elektron) müəyyən edilməsi və onlarla işləmə nəzəriyyəsi və praktikası ilə tanış edəcək; |
| FTN 6 Arxiv materiallarının tədqiq olunması, elmi ədəbiyyatla işləmə bacarıqlarının aşılanaraq yeni metodoloji prinsiplər vasitəsilə daha analitik təhlil üsulundan istifadə mənimsəniləcək. |

| Aşıqşünaslığın tarixi və nəzəriyyəsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fənnin tədrisi çərçivəsində aşıqşünaslığın təşəkkülü və və inkişaf mərhələləri; |

| |
|---|
| FTN 2 Aşıq musiqisinin poetikasının tarixi və nəzəri aspektləri; |
| FTN 3 Aşıq sənətinin ənənəvi mədəniyyət sistemində yeri, tarixi inkişafı, janr rəngarəngliyi; |
| FTN 4 Ozan-aşıq sənətinə xas olan sinkretizm və sintez problemləri, aşıq sənətinin şəkilləri və onların musiqi ilə əlaqəsi, dastançılıq mədəniyyəti; |
| FTN 5 Aşıqşünaslıqda musiqi dialekt problemləri, aşıq mühitlərinin regional ənənələrə malik olması, ifaçılığa aid elmi-nəzəri ədəbiyyatdan istifadə olunması; |
| FTN 6 Aşıqşünaslıqda etnoorqanoloji problemləri, saz və sazabənzər alətlərin morfoloji və bədii-texniki xüsusiyyətləri öyrənilir, aşıq musiqisinin terminologiyası haqqında biliklər verəcək. |

| **Musiqi tənqidi və musiqi jurnalistikası fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fənn çərçivəsində musiqi tənqidinin tarixi inkişafı, əsas istiqamətləri və aparıcı nəzəriyyələri, musiqi tənqidi və musiqi jurnalistikasının metodoloji əsasları haqqında bilgilər veriləcək; |
| FTN 2 Musiqi jurnalistikası və müasirlik: problemlər, tendensiyalar və s. KİV-də musiqi jurnalistinin fəaliyyəti, müasir musiqi jurnalistikasının prinsipləri, üslub xüsusiyyətləri və etik normaları haqqında geniş məlumat veriləcək; |
| FTN 3 Bədii prosesin mürəkkəbləşdiyi, bu proseslərə aydınlıq gətirmək və tənzimləmək üçün musiqi tənqidindən real mexanizm kimi istifadə yolları öyrədilir, musiqi tənqidinin janr və formaları (resenziya, esse, analitik məqalə və s.) fərqləndirilir və tətbiq ediləcək. |
| FTN 4 Musiqini, musiqili səhnə əsərini necə dinləmək, hansı nüanslara diqqət yetirmək, müsahibə almaq, reportaj hazırlamaq, düzgün sual vermək, öz fikirlərinə əsaslanmaq, məlumat vermək və s. bacarıqları təkmilləşdirmək kimi səriştələr veriləcək; |
| FTN 5 Həm musiqi tənqidinin, həm də musiqi maarifçiliyinin təbliğinin, musiqi-mədəni prosesə yönələn hər hansı publisistikanın təcəssüm vasitəsi kimi xidmət edə bilməsi haqqında bilgilər verilir, musiqi jurnalistikasında üslub, dil və terminologiyadan düzgün istifadə yolları öyrədiləcək; |
| FTN 6 Materialla düzgün işləmək, səlis redaktə etmək,musiqi hadisələrinə (konsert, premyera, festival və s.) dair analitik və obyektiv resenziyalar yaza bilmək səriştəsi əldə edilir, KİV-lərdə musiqi tənqidinin rolu və funksiyası təhlil ediləcək. |

| **Etnomusiqişünaslıq fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fənn çərçivəsində etnomusiqişünaslığın təşəkkülü və əsas inkişaf mərhələləri haqqında; |
| FTN 2 Etnomusiqişünaslığın metodoloji əsasları, xarici musiqi tədqiqat mərkəzlərinin etnomusiqişünaslığın inkişafında rolu, müasir rəqəmsal texnologiyalardan istifadə edərək, müasir rəqəmsal texnologiyaların musiqi sənətinə təsiri; |
| FTN 3 Etnomusiqişünaslıq sahəsində əldə olunmuş nəticələrin ənənəvi musiqişünaslığın bir sıra elmi problemlərin həlli üçün zəmin yaratdığı, etnomusiqişünaslığın istiqamətləri; |
| FTN 4 Tarixi mərkəzçilik təmayüllərinə qarşı çıxan etnomusiqişünaslığın milli və etnik qrupların etnomədəniyyətini bərabər hüquqlu bədii hadisə kimi dünya musiqisinin zəngin və rəngarəng panoramı; |

| |
|---|
| FTN 5. Müasir fənlərarası istiqamətlərin prinsip və üsullarını cəmləşdirən etnomusiqişünaslığın çağdaş elmin ən sürətlə inkişaf edən sahələrdən biri olduğu; |
| FTN 6 Ənənəvi musiqi nümunələrinin sistemləşdirilməsi və tipologiyasına dair elmi-nəzəri ədəbiyyatdan istifadə etmək, ənənəvi müsiqi nümunələrinin nota salınmasının nəzəri-metodiki aspektlərinin təcrübədə tətbiq yolları öyrədiləcək. |

| Orqanologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Orqanologiyanın mahiyyətini və inkişaf mərhələlərini izah edə biləcək. |
| FTN 2 Müxtəlif dövrlərə və mədəniyyətlərə aid musiqi alətlərini müqayisəli şəkildə təhlil edə biləcək. |
| FTN 3 Müstəqil tədqiqat aparmaq üçün analitik düşünmə və elmi yanaşma bacarıqları formalaşdıracaq. |
| FTN 4 Tarixi-etnoqrafik, müqayisəli-analitik və sahə tədqiqatı metodlarını tətbiq edəcək. |
| FTN 5 Mədəni irsin davamlılığı baxımından alətlərin sənədləşdirilməsi və arxivləşdirilməsi işində iştirak edəcək. |

| Ənənəvi musiqi nümunələrinin toplanması və nota salınması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fənnin əsas məqsədi ənənəvi musiqi nümunələrinin nota salınmasının tarixi-nəzəri və metodiki aspektlərini öyrənəcək; |
| FTN 2 Ənənəvi musiqi nümunələrinin toplanması üçün vacib olan ekspedisiya işinin metodikasını biləcək; |
| FTN 3 Ənənəvi musiqi nümunələrinin toplanması və toplanmış material əsasında not vəsaitləri tərtib etmək səriştələrinə yiyələnəcək; |
| FTN 4 Xalq musiqisi nümunələrinin notlaşdırılmasında yeni işarələr sistemindən istifadə etməyi öyrənəcək; |
| FTN 5 Azərbaycan xalq musiqisinin, rəqslərin, muğamların, aşıq yaradıcılığı nümunələrinin notasalınmasında nəzərə çarpan fərqliliyi öyrədəcək. |

| Ekspedisiya işinin metodikası və notasalınma fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fənn çərçivəsində ekspedisiya təşkil etmə qaydalarını öyrədəcək. |
| FTN 2 Ekspedisiya zamanı istifadə olunan texniki avadanlıqlarla işləmə qaydaları (diktofon, kamera və s.) öyrənəcək. |
| FTN 3 Sahə tədqiqatının planlaşdırılması haqqında məlumat veriləcək. |
| FTN 4 Mədəni irsin daşıyıcıları ilə düzgün ünsiyyət qurmaq haqqında məlumat veriləcək. |
| FTN 5 Ekspedisiya zamanı toplanan musiqi materiallarının yazılı şəkildə sənədləşdirilməsi qaydaları başa salınacaq. |
| FTN 6 Folklor materiallarının elmi baxımdan dəyərləndirilməsi haqqında məlumat veriləcək. |

| Etnoorqanologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Fənnin tədrisinin əsas məqsədi etnoorqanologiyanın bir elm kimi təşəkkülü və əsas inkişaf mərhələləri haqqında biliklər əldə edəcək; |
| FTN 2 Etnoorqanologiyanın əsaslarını öyrədəcək; |
| FTN 3 Milli musiqi alətlərimizin müxtəlif növləri haqqında məlumatlar veriləcək; |
| FTN 4 Musiqi alətlərimizin yaranma tarixi, təkmilləşmə məsələləri, onların quruluşu, diapazonu, səsdüzümü, partiturada yazılışı və bu alətlər üçün köçürmə qaydaları ilə bağlı dəyərli məlumatlar veriləcək; |
| FTN 5 Türksoylu xalqların milli musiqi alətləri, xalq çalğı alətləri orkestr və ansambllarının yaranma tarixi və inkişaf yollarını öyrənəcək; |
| FTN 6 Xalq çalğı alətləri ansambllarıvə orkestrləri üçün köçürmə qaydalarının tədrisidir. |

| Musiqi menecmenti fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Rəqəmsal səs texnologiyasının əsas anlayışları haqqında bilgilər veriləcək. |
| FTN 2 Müxtəlif musiqi proqramları ilə işləmə qaydaları öyrənəcək. |
| FTN 3 Səsyazma və montaj işlərini yerinə yetirmək qaydaları öyrənəcək. |
| FTN 4 DAW proqramlarında audio və MIDI layihələri hazırlamaq qaydaları öyrənəcək. |
| FTN 5 Musiqi layihələrini orijinal şəkildə təqdim edə bilmək səriştələri əldə ediləcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| Elmi tədqiqat təcrübəsi üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2 - Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3 - Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4 – Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5 - Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6 - Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| Magistrlik dissertasiyası üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2 - İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3 - Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4 – Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5 - Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6 - Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 |
| Tədqiqat metodları | x | | | | | | |
| Akademik yazı və etika | | | x | | | | |
| Tədqiqat analitikası | | x | | | | | |
| Musiqişünaslığın tarixi və metodologiyası | x | x | | | | | |
| Ənənəvi musiqi nümunələrinin təhlili | x | x | | | | | x |
| Musiqişünaslığın əsas istiqamətləri | x | x | x | | | | |
| Müasir musiqi texnologiyaları | | | | | | x | |
| Muğamşünaslığın tarixi və nəzəriyyəsi | x | x | x | x | | | |
| Aşıqşünaslığın tarixi və nəzəriyyəsi | x | x | x | x | | | |
| Musiqi mənbəşünaslığı | | | x | x | | | |
| Musiqi tənqidi və musiqi jurnalistikası | x | x | | x | | | |
| Ali məktəb pedaqogikası və psixologiya | x | | | | | | |
| Etnomusiqişünaslıq | x | | x | | | x | x |
| Orqanologiya | | x | | x | | | |
| Ənənəvi musiqi nümunələrinin toplanması və notasalınması metodikası | | | | | | | x |
| Ekspedisiya işinin metodikası və notasalınma | | | | | | | x |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Etnoorqanologiya | | x | | x | | | |
| Musiqi menecmenti | | | | | | x | |
| Elmi-pedaqoji təcrübə | | | | | x | | |
| Elmi tədqiqat təcrübəsi | | | | | | x | |
| Magistrlik dissertasiyası | | | | | | x | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri:** ____________ **Ellada Hüseynova**

**ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı:** ____________ **İradə Xəlilova**